


# Döyüş meydanında zəfər yazan ordu

***Silahlı qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı həyata keçirilən hərbi siyasətin səmərəliliyi Vətən müharibəsində öz təsdiqini tapdı. Ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemlərini və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi.***

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər zamanı burada hərbi hissənin açılışında çıxış edərək bu barədə ətraflı danışıb, son illərdə Azərbaycan ərazisində yeni hərbi hissələrin, hərbi şəhərciklərin salındığını diqqətə çatdırıb. Ölkə rəhbəri bu sahəyə xüsusi önəm verilməsinin hərbçilərin xidmət şəraitini daha da yaxşılaşdırmaq məqsədi daşıdığını, hazırda respublikanın bütün bölgələrində əksər hərbi hissələrin standartlara uyğun qurulduğunu xatırladıb.

**(ardı 4-cü səhifədə)**

# Döyüş meydanında zəfər yazan ordu



*(əvvəli 1-ci səhifədə)*

Hadrut qəsəbəsində də yeni hərbi hissənin açılması bunun bariz ifadəsidir. Eyni zamanda, bu münasibətlə etdiyi çıxışı 44 günlük Vətən müharibəsinin xarakterini, qazanılan qələbənin əhəmiyyətini dərindən dərk və indiki şəraitlə müqayisə etmək baxımından faydalıdır. Dövlətimizin başçısının bununla bağlı fikirləri diqqət çəkir: "Mən işğal dövründə dəfələrlə deyirdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Ermənistan rəhbərlərinə dəfələrlə deyirdim ki, hələ gec deyil, öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar, rədd olsunlar. Ancaq əfsuslar olsun ki, onların uzun illər ərzində yaydıqları yalana özləri də inanmağa başlamışdılar. Dünyaya Azərbaycan xalqı haqqında, Azərbaycan Ordusu haqqında həqiqətə uyğun olmayan böhtan və uydurma xarakterli məlumatlar yayırdılar. İkinci Qarabağ müharibəsi göstərdi kim-kimdir. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun, Azərbaycan xalqının əyilməz iradəsini göstərdi. Ermənistan ordusu bu gün artıq məğlub edilmiş ordudur. Azərbaycan Ordusu isə müzəffər ordudur!".

Hadrutda yeni hərbi hissənin açılması bu bölgə üçün strateji əhəmiyyət daşıyır. Əvvəla ölkənin təhlükəsizliyini qoruyur, digər tərəfdən azad edilən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid ərazidə yerləşir. Eyni zamanda, bu hərbi hissənin fəaliyyətə başlaması Azərbaycanın müharibədən sonra ordu quruculuğu prosesini dayandırmadığını və orduya ayrılan xərclərin azalmadığını, əksinə, artırıldığını göstərir. Müharibədən sonra imzalanan yeni kontraktlar da uğurla icra edilir. Belə ki, yeni müqavilələr əsasında artıq Azərbaycan Ordusunun təchizatı üçün respublikaya ən müasir silahlar, texnikalar gətirilir və dünya da bundan xəbərdardır: "Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik. Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması, – bütün bunlar göz qabağındadır, – onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi bizə göstərdi ki, güclü yerlərimiz haradadır və qüsurlarımız haradadır. Müharibə dövründə qüsurlarımız çox deyildi, amma olub. Ona görə müharibə bizim üçün əvəzolunmaz təcrübə idi. Müharibədən sonra həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda, yeni silahlı birləşmələr yaradılır...".

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Hadrutda fəaliyyətə başlayan hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando briqadasının yaradılması Azərbaycan üçün yenilikdir. Respublikamızın digər ərazilərində də artıq komando briqadaları yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

Yüksək təlim keçən, yüksək iradə göstərən və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, Azərbaycan Ordusunun gücünü daha da artıracaq. Belə briqadaların sayı getdikcə artırılacaq, minlərlə hərbçimiz bu hərbi hissələrdə xidmət keçəcək. Beləliklə, Azərbaycanın əsgər və zabitləti bundan sonra da öz peşəkarlığını, yüksək mənəvi ruhunu qoruyacaqlar.

Rusiyanın "Natsionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko da mətbuata müsahibəsində Hadrutda komando briqadalarının yaradılmasının Azərbaycanın Silahlı Qüvvələrinin inkişafında və döyüş səmərəliliyinin artırılmasında yeni mərhələ olduğunu bildirib. O deyib: "Komando briqadalarının yaradılmasını həm də Bakının Qarabağda Nikol Paşinyanın üçtərəfli bəyanat üzrə öhdəliklərinə baxmayaraq, fəal şəkildə partizan müharibəsi taktikasını icra edən qanunsuz erməni silahlı birləşmələrinin mövcudluğuna reaksiyası kimi qəbul etmək olar.

Komando briqadaları peşəkar hərbçilərdən qurulmuş, ən yeni silah və avadanlıqlarla təchiz olunmuş müntəzəm hazırlıqlı, yüksək hərəkətli desant-hücum qruplaşmalarıdır. Onlar günün istənilən vaxtında, silahlı münaqişələrin istənilən əməliyyat mühitində, istənilən potensial döyüş əməliyyatları teatrında, o cümlədən, dağ-meşə məkanlarında, eləcə də, məskunlaşmış ərazilərdə dərhal döyüşə hazır olur. Bu, ümumilikdə silahlı qüvvələrin döyüş hazırlığının əhəmiyyətli dərəcədə artırılmasını ifadə edir".

İ.Korotçenko əlavə edib ki, komando briqadaları əsas qüvvələrdən ayrı, təcrid olunmuş halda belə müstəqil şəkildə döyüş əməliyyatlarını aparmağa qadirdir.

Prezident İlham Əliyev çıxışında İkinci Qarabağ savaşında erməni odusunun hərbi birləşmələrimiz qarşısında aciz duruma düşdüyü barədə də bəhs edib. Dövlətimizin başçısı işğal dövründə erməni faşizminin bütün şəhər və kəndlərimizi dağıtdığını, tarixi, dini abidələrimizi yerlə yeksan etdiyini, hətta "yeni torpaqlar uğrunda yeni müharibə"yə hazırlaşdığını xatırladıb. Lakin 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. silahlı qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi. Ölkə rəhbərinin çıxışında vurğulandığı kimi, İkinci Qarabağ savaşında işğalçı tərəfindən səsləndirilən bütün təkəbbürlü ifadələr zibil yeşiyinə atıldı, erməni tanklarının Bakıya gəlmək hədəsi fiaskoya uğradı: "Bəli, erməni tankları gəldi Bakıya, onları biz gətirdik. Azadlıq meydanında hərbi paradda, Qələbə paradında onları nümayiş etdirdik. Bu gün onlar Azərbaycan Ordusunun gücünün və Ermənistan ordusunun məğlubiyyətinin təzahürü kimi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz bundan sonra həmişə müzəffər xalq və qalib dövlət kimi yaşayacağıq".

Ümumiyyətlə, dövlətimizin başçısının prezidentlik fəaliyyətinə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlər sırasında ordu quruculuğu xüsusi yer tutub. Xatırladaq ki, 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev deyib: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qalıb, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər görüb, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail olub.

Azərbaycanın Vətən müharibəsində möhtəşəm qələbəsi də Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidir. Dövlətimizin başçısı bu barədə dəfələrlə bildirib ki, bu gün bir çox ölkələrdə bizim hərbi təcrübəmiz öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Kəlbəcər və Laçın rayonlarında hərbi obyektlərin də istifadəyə verilməsi Vətən müharibəsindən sonra ordu quruculuğu ilə bağlı görülən işlər sırasında xüsusi önəm daşıyır. Bu, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yüksək dağlıq ərazilərdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğının bariz ifadəsidir.

Kəlbəcər və Laçın rayonlarında istifadəyə verilən hərbi obyektlərdə şəxsi heyət üçün lazımi şərait yaradılıb. Binalar bütün zəruri ehtiyacları təmin etmək məqsədilə müasir avadanlıq, mebel və inventarla təchiz edilib. Hərbi hissələr üçün alınan yeni tırtıllı və xizəkli texnika vasitələri ilə qarla örtülmüş çətin relyefli ərazilərdə şəxsi heyətin, o cümlədən, yüklərin fasiləsiz daşınması təmin olunub. Silahlanmaya yeni qəbul olunan texnikanın gücü ilə bölmələrin fəaliyyəti daha da operativ xarakter alıb.

Azərbaycanda ordu quruculuğuna mühüm təsir göstərən məsələlərdən biri də həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının davamlı olaraq artırılmasıdır. Məsələn, Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının 20 faizi məbləğində artırılması haqqında fərman imzalayıb.

Azərbaycan Odusunun gücləndirilməsi, döyüş hazırlığının inkişaf etdirilməsi bu gün də diqqətdə saxlanılır. Prezident, Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulayıb ki, Silahlı Qüvvələrimizin inkişafı, möhkəmləndirilməsi prosesi bundan sonra da davamlı olacaq, ordumuzun dünyanın ən müasir silah və hərbi texnikası ilə təchiz edilməsinə prioritet istiqamət kimi yanaşılacaq. Ordumuz Vətən müharibəsində Ermənistan işğalçılarını ağır məğlubiyyətə uğradaraq torpaqlarımızdan qovsa da, erməni faşizminin nə qədər təhlükəli, məkrli olduğu hər kəsə məlumdur. Bu gün Ermənistan daxilindəki bəzi qüvvələr revanşist çağırışlarla çıxış edirlər. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Ordusu hər zaman istənilən təxribatın qarşısını almağa hazır olmalıdır. Ermənistan isə Qarabağdakı rüsvayçı məğlubiyyətindən dərs almalı, nəticə çıxarmalıdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 28 dekabr.- S.1;4.